# "GÖYTƏPƏ VƏ GÖYTƏPƏLİLƏR"

Şair-publisist Süleyman Əlisanın "Göytəpə və göytəpəlilər" kitabını vərəqlədikcə yazarın bu mövzunu əlində tutarqaya çevirərək əslində Azərbaycan tarixinin bəlli bir hissəsini böyük sevgi və səmimiyyətlə qələmə aldığının şahidi oluruq. Onun şəxsi görüşlərindən, müsahibələrindən əlavə tarix, etnoqrafiya, ədəbi nəşrlərdən, bədii qaynaqlardan ibarət 43 mənbədən yararlanaraq böyük tədqiqat işinin nəticəsi kimi ərsəyə gətirdiyi kitabda tarixi faktlar və arqumentlər geniş maarifləndirici ictimai əhəmiyyət daşıyır və əsəri daha da oxunaqlı edir. Cəlilabad rayonunun inzibati ərazisi, çar Rusiyası və Sovetlər dönəmində müxtəlif xalqların, müxtəlif dini məzhəbə qulluq edən insanların məskunlaşdığı, cənub bölgəsinin sənaye mərkəzlərindən olaraq "Prişib" kimi tanınan, əslində qədim "Göytəpə" yaşayış məskəni və onu şöhrətləndirən insanlar barədə bəzi məqamlarda ensiklopedik, bəzi məqamlarda daha geniş, təfsilatlı bilgilər verən kitabı tədqiqatçılar üçün əvəzsiz vəsait də adlandırmaq olar. Kitabda faktlara söykənərək qələmə alınan olayların bəzi hallarda qürurverici, bəzi hallarda başımıza gətirilən müsibətlər fonunda tükürpədici formada inikasını gördükcə adam heyrətə gəlir.

Çar Rusiyasının bufer zona hədəfi

Məlumat üçün qeyd edim ki, bir qismi provaslav təriqətli, bir qismi molokan sayılan rusların Azərbaycana - çar Rusiyasının ilhaq etdiyi bu bərəkətli torpaqlara nə zaman köçürülməsi haqqında indiyədək müxtəlif mübahisəli versiyalar, mübahisəli illər söylənilib. Təbii ki, ruslar bu ərazilərə torpaqların onların əbədi məskənləri olacağı ümidi ilə gətirilmişdilər. Onların köçünə "ucqarlara köçürülmə", "müasirliyin ölkə boyu yayılması" kimi adlar verilsə də, əslində bu hərəkətlənmənin əsl mahiyyəti uzunmüddətli müharibədən sonra İrandan "Gülüstan" və "Türkmənçay" müqavilələri ilə alınmış ərazilərdə yaşayanların milli tərkibinin dəyişdirilməsi, gələcəkdə mümkün milli münaqişə ocaqlarının yaradılmasına hesablanmış siyasət və xristian məzhəbli rusların müsəlmanlarla qaynayıb-qarışması nəticəsində rusların guya daha mütərəqqi xalq kimi bu ərazilərdə dominantlığına nail olunması idi. Bunun üçün onların məskunlaşdırıldığı kənd və qəsəbələrdə o dövrün imkanları baxımından yaşayış üçün zəruri olan bütün şəraitləri yaratmışdılar. Hətta evlərin səliqə-sahmanla tikilməsi, poçt xidmətləri, hamar yollar, içməli su xətləri, məşhur "rus hamamları"na qədər. Köçürülənlərin mərkəzi hakimiyyətin agentura şəbəkəsi olması isə şübhəsiz idi. Necə ki, bu amil özünü bir sıra inqilabi proseslər və xüsusilə də Azərbaycanın əksər bölgələrində törədilən 1918-ci il "Mart soyqırımı" günlərində əyani şəkildə göstərdi...

Öz coğrafiyasının yaşayış və təsərrüfat subyektləri baxımından xüsusi əhəmiyyətli yaşayış məskənlərindən olan qədim Göytəpə də məhz belə ərazilərdən biri və bəlkə də birincisi idi. Köçürülən rusların sayı Göytəpənin və ümumiyyətlə, ölkəmizin cənub və xüsusilə də Muğan bölgəsinin yaşayış məskənlərinin payına həm də ona görə çox düşmüşdü ki, bu ərazilər İranın müqavilələr nəticəsində çəkilmiş yeni sərhəddinə yaxın ərazilər hesab olunurdu. Çox güman ki, çar Rusiyası burda gələcək üçün bufer zona yaratmağı hədəfləmişdi.

Bütün hallarda köçürülmələrin əsas ağırlığını, cəzasını yerli müsəlmanlar çəkməli olurdu. Onların torpaqları əllərindən alınır, özləri müflisləşdirilərək ruslardan asılı vəziyyətə salınırdılar. Bəziləri boyun əyib razılaşır, bəziləri - diribaşları isə baş götürüb İrana və ya ölkənin daha sakit digər bölgələrinə köçüb gedirdilər. Ruslara qarşı müqavimət hərəkatları yaradanlar kim, yollarda məhv olub dünyasını dəyişənlər kim, mənzil başına yetişib nisbətən sakit həyata qovuşaraq yenidən sıfırdan gün-güzəran quranlar kim...

Bütün bu olayları son dərəcə həssaslıqla araşdırıb tədqiqat əsərlərinə istinadla "Göytəpə və göytəpəlilər"-də qruplaşdıran Süleyman Əlisa Göytəpə ətrafında az qala bütün dövrlər üçün yaşanmış olayları kitabda əks etdirməyə çalışıb. Müəyyən mənada buna nail ola da bilib. Kitabın tərtibatında diqqət çəkən daha bir maraqlı məqam onun uzaq tarixdən başlayıb Vətən müharibəsindəki böyük Zəfərimizlə - tarixi qalibiyyətimizlə başa çatmasını əhatə etməsindədir. Bu barədə sonra...




Müəllif qeyd edir ki, hazırda 15,5 min nəfərdən çox sakini, 2972 təsərrüfatı, istehsal və emal sahələri, xəstəxanası, peşə liseyi, çoxlu sayda ictimai-inzibati binaları, uşaq bağçası, poçtu, məscidi, kilsəsi və s. olan Göytəpənin toponimi Türk dünyasının bir sıra yaşayış məskənləri ilə həmahəngdir. Bir ucu Cənubi Azərbaycanın Zəncan, Urmiya, eləcə də Şərqi və Qərbi Azərbaycan əyalətlərindən başlayan bu toponimin trayektoriyası Xəzərin o tayına keçib Türkmənistanı da adlayaraq Özbəkistanın Səmərqənd şəhərinə qədər uzanır. Kitabda hazırkı Cəlilabad rayonu ərazisində S.Əlisanın bilavasitə tədqiqat obyekti olan Göytəpə şəhəri ilə yanaşı rayonda yerləşən, indi artıq adları dəyişdirilmiş Pokrovka, Novoqolovka, Andreyevka və s. kəndlərə son köçürmələrin "V.İ.Leninin "Köçürmə məsələsi" əsərinin nəticəsi kimi 1905-ci ildə yekunlaşdığı" faktı da qeyd edilir. Ruslaşdırma siyasətinin bu mərhələsində Alar kəndinin torpaqlarının zorla əllərindən alınaraq Pokrovka ruslarına verildiyi də qeyd olunur. Cənub bölgəsində yerləşdirilmiş rusların Lənkəranda, Astarada, Biləsuvarda törətdiyi qırğınları da ürək yanğısı ilə qeyd edən müəllif kitabın

**"Göytəpə və onun sərhəd-keçid məntəqəsi kimi inkişafı"**

bölümündə tarixi fakt və mənbələrlə yanaşı, yerli əhali ilə söhbətləri əsasında insanların görüb-eşitdiklərini onların öz dilindən oxucularına çatdırır. Müəllif rusların Göytəpəyə nə zaman köçməsi barədə bu kəndin yetirməsi olan iqtisad elmləri üzrə fəlsəfə doktoru Ramiz Əzizovun uzun müddət Göytəpədə məsul vəzifələrdə çalışan anası Surə xanım Abıyevanın görüşünə gəlməsi zamanı bu dövrdə artıq yerli camaata qaynayıb-qarışan göytəpəli rusların özlərinin dediklərini ictimailəşdirməklə aydınlıq gətirib. Belə ki, R.Əzizov deyib ki, o, hələ tələbəlik illərində bayramlarda, yay tətillərində Göytəpəyə gələndə anasının rəfiqələri, işçiləri olan rusların maraqlı söhbətlərinin şahidi olurmuş. Növbəti belə görüş yerli məktəbin müəlliməsi Anna Budnikova və Yevgeniya Malenkina ilə olub. Y.Malenkina söyləyib ki, onun nənəsinin 12 yaşı olanda valideynləri Həştərxan quberniyasından Göytəpəyə gəlib. Bu köçürülmə Rusiyada təhkimçilik hüququnun ləğv edilməsindən sonra baş veribmiş. O zaman çoxlarına belə təkliflər olunub. Hətta onlara vədlər verərək Azərbaycana köçsələr burda "rekrutçina"dan azad ediləcəkləri, xüsusi güzəştlər əldə edəcəkləri, çoxlu torpaq payı alacaqları deyilirmiş. Amma molokanlar bu ərazilərə həştərxanlılardan əvvəl gəliblər. O zaman hər tərəf qalın meşələr olduğundan vəhşi heyvanların qorxusundan bu ərazilərdə məskunlaşmaq riskli imiş. Onlar iri ağacları kökündən kəsib taxta daxmalar düzəldirmişlər. Əvvəllər hətta müxtəlif vaxtlarda buraya köç etmiş rusların özlərinin arasında belə ixtilaflar yaransa da, sonralar müxtəlif dinlərə, müxtəlif məzhəblərə, fərqli konfessiyalara qulluq edən göytəpəlilər arasında münaqişələr baş verməyib. Bunlar Surə xanımın digər qonağı Anna Budnikovanın da dilindən səslənib. O, söyləyib ki, Göytəpədə molokanlar, müsəlmanlar, babtistlər, provaslavlar və katoliklər sonrakı illərdə dinc yaşaya biliblər. Əvvəllər çoxmillətli qəsəbə kimi tanınan Göytəpədə hətta polşalılar da məskən salıbmışlar. Qədim Ərdəbil, Lənkəran, Salyan, Bakı yollarının üstündə yerləşdiyindən müstəsna coğrafi mövqeyə malik bu kəndin vaxtilə "Prişib" adlandırılması isə molokanların istəkləri nəticəsində mümkün olubmuş...

Göytəpə rusları da ötən əsrin 30-cu illərində repressiyalara məruz qalıb. Təxminən elə azərbaycanlılar kimi. Onları da sinfi fərqlərinə, dini inanclarına görə təqib və hətta sürgün də ediblər. Kənddə fəaliyyət göstərən Müqəddəs Olqa kilsəsinin keşişi İoann Qançev ailəsi ilə birlikdə əvvəlcə Qazaxıstana sürgünə göndərilib, sonra isə güllələnib...

**Kurqanlarda yaşayan tarix...**

"Göytəpə və göytəpəlilər"də qədim tariximiz - kurqanlar barədə də geniş məlumatlar yer alıb. Bu kurqanların bəzilərində hətta vəfat edənin hansı təbəqəyə aidliyindən asılı olaraq onun var-dövləti, nökər-naibi, ailəsi ilə birgə basdırıldığı faktları da var. Kurqanlar uzun müddət Azərbaycan və rus arxeoloqlarının tədqiqat obyekti olmuşdur. Kitabda bununla yanaşı Göytəpə diyarının təsərrüfat əhəmiyyəti də qeyd olunmuş, burada düyü, taxıl, kartofçuluq, pambıq istehsalı, balıq vətəgələri üçün həmişə münbit şərait olduğu da diqqətlərə çatdırılmışdır.

Məlumdur ki, Göytəpədə SSRİ dönəmində bir neçə hərbi hissə yerləşdirilib. Ötən əsrin 80-ci illərinin sonunda ermənilərin azərbaycanlılara qarşı yürütdüyü mənfur siyasət nəticəsində xalqımızın etirazları eşidiləndə bu hərbi hissələrə çoxlu sayda silahlı rus və erməni hərbçiləri yerləşdirilir. Burada hər hansı faciənin baş verməsini önləmək üçün Göytəpə ziyalıları Bəyaz Kərimov, Nəhməd Əzizov və başqaları narahatlıqlarını bildirir və hüquq-mühafizə orqanları qarşısında məsələ qaldıraraq yuxarı təşkilatları xəbərdar edirlər. Nəticədə baş verə biləcək qanlı hadisələrin qarşısı alınır.

*(Davamı 16-cı səhifədə)*

KREDO
№ 26 (1282) 25 sentyabr 2025-ci il

# "GÖYTƏPƏ VƏ GÖYTƏPƏLİLƏR"

*(Əvvəli 13-cü səhifədə)*

### Özünə qayıdan - məscidli Göytəpə

Qeyd etdiyimiz kimi "Göytəpə və göytəpəlilər"də bu diyarda ərsəyə gəlmiş xeyli sayda azərbaycanlı ziyalılar barədə də müfəssəl məlumatlar verilib. Artıq 1967-ci ildən şəhər statusu alan Göytəpədə 1990-cı illərdə Prişib şəhər sovetinin sədri Bəyaz Kərimovun təşəbbüsü, şəhər icraiyyə komitəsinin köməkliyi ilə ikiqülləli, ikimərtəbəli məscidin inşasına nail olunub. Bununla da Göytəpə sakinləri rahat şəkildə öz ibadətlərini yerinə yetirməyə başlayıblar. Elə bu illərdə xeyriyyə fondu da yaradılaraq əvvəlcə Qarabağ savaşına, sonra isə şəhid ailələrinə, imkansız və tənha yaşayan qocalara, qaçqınlara, əlillərə və digər ehtiyacı olanlara yardımlar edilib. Bəyaz müəllim həmçinin "Göytəpə tarix-diyarşünaslıq muzeyi"nin yaradılmasının da təşəbbüskarı olmuşdur.

### Nəhməd müəllimin məktəbi

Süleyman Əlisa kitabda Göytəpə şəhər 2 saylı orta məktəbinə düz 37 il rəhbərlik etmiş, 37 ildə yüzlərlə şagirdin təhsil-tərbiyəsi ilə məşğul olmuş, tanınmış pedaqoq, "Maarif əlaçısı" Nəhməd müəllim Əzizovdan da söhbət açır. O, adıçəkilən təhsil ocağının birmənalı olaraq "Nəhməd müəllimin məktəbi" adlandırılmasının səbəbini həmin məktəbin ölkənin qabaqcıl təhsil ocaqları sırasında yer alması ilə əlaqələndirir, N.Əzizovun dərin pedaqoji və ictimai fəaliyyətindən söz açır.

Haqqında yazılanlardan məlum olur ki, N.Əzizov ölkə boyu savadsızlığın ləğv olunmasına dəstək verənlərin sırasında 1 sentyabr 1950-ci ildə rayonun Şıxlar kəndində ibtidai sinif müəllimi kimi fəaliyyətə başlayır. Uzaq yolu pay-piyada gedib-gələn gənc müəllim bütün çətinliklərə sinə gərir. Lakin o, daha yüksək - ali təhsil almaq və tarix ixtisasına yiyələnmək üçün işləyə-işləyə Azərbaycan Dövlət Pedaqoji İnstitutu (indi ADPU) Tarix fakultəsinin qiyabi şöbəsinə qəbul olunur. Sonrakı fəaliyyəti dövründə isə müəllim işlədiyi və rəhbərlik etdiyi məktəbin şagirdlərinə təkcə təhsil verməklə kifayətlənməyib, onların daha dərin savada, geniş dünyagörüşünə, sərhədsiz intellektual potensiala sahiblənmələri üçün mütəmadi olaraq məktəbdə ölkənin tanınmış ziyalıları, şair və yazıçıları ilə görüşlər təşkil edib. Belə görüşlərə Xalq yazıçısı Anar, Xalq şairi Vaqif Səmədoğlu, SSRİ Xalq artisti, məşhur aktyor İsmayıl Dağıstanlı kimi fikir, düşüncə adamlarını - həm də xalqımızın milli yaddaşının oyanışında xüsusi çabalar göstərən bilim adamlarını dəvət edirdi. Nəhməd müəllimin digər xüsusiyyətlərini də qeyd edən müəllif onun rus zabitlərinin uşaqlarına Azərbaycan ədəbiyyatı, tarixi barədə məlumatlar verdiyini, bunları reallaşdırmaq məqsədilə çeşidli tədbirlər təşkil etdiyini yazır. Sonra N.Əzizovun ailəsində boya-başa çatan övladları haqqında da məlumatlar verərək onların da ölkəmizin ictimai-siyasi həyatında müstəsna xidmətlərini vurğulayır, məsul dövlət vəzifələrində çalışan övladları Fikrət və mərhum Ramiz Əzizovların, Respublikanın Əməkdar müəllimi, həmçinin Tərəqqi medalı ilə təltif edilmiş Elmira Abbasovanın, Əməkdar müəllim Oqtay Əzizovun və başqalarının timsalında məşhur "ot kökü üstə bitər" misalı ilə fikirlərini ümumiləşdirir.

Müəllif "Göytəpə və göytəpəlilər"də həmçinin bu şəhərin respublikamız üçün müxtəlif ixtisaslar üzrə yetişdirdiyi bir sıra ziyalılar və Nəhməd müəllim Əzizovun onların sırasında yer alan şagirdləri barədə də təfsilatlı məlumatları qeyd edib.

Kitabda İkinci Dünya savaşında, eləcə də Qarabağ müharibəsində döyüşən və şəhid olan göytəpəlilər haqqında məlumatlara da geniş yer verilir. Qeyd edilir ki, erməni təcavüzkarları ilə Vətən müharibəsinin birinci dönəmində döyüşlərdə 16 nəfər Göytəpə sakini qəhrəmancasına şəhid olub. Onlardan Vüqar Mirəzbər oğlu Mürsəlov Azərbaycanın Milli Qəhrəmanı adına, Oqtay Eynullayev isə "Azərbaycan Bayrağı" ordeninə layiq görülüb. Hazırda şəhidlər Vüqar Mürsəlov və Vasif Hüseynovun oxuduğu məktəblər onların adını daşıyır. Eyni zamanda şəhərdəki bir sıra küçələr şəhidlərin adına verilərək onların xatirələri əbədiləşdirilib.

### 44 günlük Vətən müharibəsi salnaməmizdə Göytəpənin yeri

Azərbaycanlıların həyat salnaməsində spesifik yeri olan hələlik sonuncu parlaq səhifə - 44 günlük Vətən müharibəsinin Zəfər sevincinə göytəpəlilərin də xüsusi töhfəsi olub. Belə ki, savaşda 13 şəhid verən Göytəpənin 100-ə yaxın da qazisi var. Tarixi ardıcıllıqla unudulmayan qəhrəmanlıq nümunələrinin təbliğinin nəticəsidir ki, şəhidlərin 10 nəfəri Birinci Qarabağ Müharibəsinin şəhidi, Azərbaycanın Milli Qəhrəmanı Vüqar Mürsəlov adına 1 saylı tam orta məktəbin məzunları Rəşad Abdullayev, Tofiq Əmirli, Mirlətif Ağayev, Vüsal Cəfərov, Şəhriyar Əsgərov, Elmir Məmmədov, Namiq Həsənov, Murad Səlifov, Elçin İsmayılov, Muxtar Babayevdir. Digər 3 nəfəri isə şəhid Vasif Hüseynov adına 2 saylı tam orta məktəbin məzunları Vüqar İbadov, Əlikram Xanışov və Ümid Qasımzadədir. Onlardan Rəşad Arif oğlu Abdullayev Vətən Müharibəsi Qəhrəmanı fəxri adına, digər şəhidlərimiz isə bir sıra adlı medallara layiq görülüblər.

"Göytəpə və göytəpəlilər" kitabı müəllifin Vətən savaşındakı qələbəmizin təsiri altında yazdığı "Döyüş şərqisi" şeiri ilə tamamlanır:

- Səngərləri yarıb getdi şəhidlər,
Canlarını fəda etdi şəhidlər.
Bu torpağa əmanətdi şəhidlər
Yağı-düşmən torpağımdan çəkil, get!



***Nəzirməmməd ZÖHRABLI,***
***jurnalist-publisist,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***